# HEYDƏR ƏLİYEV İRSİ VƏ MULTİKULTURAL DƏYƏRLƏR

HEYDƏR ƏLİYEV İRSİ VƏ MULTİKULTURAL DƏYƏRLƏR

BBK 45.2.2
Y – 55

Heydər Əliyev irsi və multikultural dəyərlər.
Bakı, Azərnəşr 2016, 616 səh.

**Kitab Yeni Azərbaycan Partiyasının
İcra Katibliyi tərəfindən hazırlanmışdır**

Kitaba Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə
Azərbaycanın Ümummilli Lideri,
Yeni Azərbaycan Partiyasının yaradıcısı
Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş
"HEYDƏR ƏLİYEV İRSİ VƏ MULTİKULTURAL DƏYƏRLƏR"
mövzusunda keçirilən konfransın materialları daxil edilmişdir.

Y $\frac{4502020000}{M\text{-}651(07)2016}$ qrifli nəşr

© Yeni Azərbaycan Partiyası, 2016



## MÜNDƏRİCAT

**Oqtay Əsədov:** Heydər Əliyev siyasi irsində multikultural dəyərlərin əhəmiyyəti ... 3
**Əli Əhmədov:** Azərbaycan modelinin multikultural təbiəti ... 11
**Əli Həsənov:** Multikulturalizmin Azərbaycan nümunəsi ... 21
**Akif Əlizadə:** Heydər Əliyevin dövlət quruculuğu siyasətində mədəniyyət strategiyası: multikultural dəyərlər və mədəni bütövlük ... 31
**Əli Həsənov:** Heydər Əliyevin siyasi kursunda multikulturalizmə baxış və yanaşmalar ... 40
**Novruz Məmmədov:** Multikulturalizm dövlət quruculuğunda və xarici siyasətdə mühüm faktor kimi ... 49
**Ziyafət Əsgərov:** Azərbaycan Respublikasının qanunvericiliyi və multikulturalizm ... 55
**Bahar Muradova:** Azərbaycanda multikulturalizm dövlət siyasətinin prioritet istiqamətidir ... 66
**Kamal Abdullayev:** Azərbaycan multikulturalizminin inkişaf perspektivləri ... 75
**Mübariz Qurbanlı:** Azərbaycançılıq ideologiyası: multikultural münasibətlər müstəvisində ... 84
**Siyavuş Novruzov:** Azərbaycanda multikulturalizmin tarixi-ictimai ənənələri ... 95
**Eldar İbrahimov:** Heydər Əliyev və Azərbaycanda multikultural siyasət ... 104
**Abel Məhərrəmov:** Multikulturalizm milli dəyərlərimizin təzahürüdür ... 112
**İsa Həbibbəyli:** Heydər Əliyevin dövlətçilik təlimində azərbaycançılıq və millətlərarası münasibətlər ... 122
**Fəttah Heydərov:** Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideyası ölkəmizdəki multikulturalizm siyasətinin təməl prinsipidir ... 134



**Süleyman İsmayılov:** Heydər Əliyev ideyalarından bəhrələnən müasir Azərbaycan multikulturalizmi ... 146
**Hicran Hüseynova:** Ailə və multikultural dəyərlər ... 155
**Vaqif Əliyev:** Ümummilli Lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru - XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol ... 166
**Yusif Hümbətov:** Multikulturalizm Heydər Əliyev siyasətinin tərkib hissəsi kimi ... 174
**Kərim Kərimov:** Tariximiz, milli-mənəvi dəyərlərimiz ... 182
**Nurlana Əliyeva:** Heydər Əliyev siyasəti və multikulturalizmin Azərbaycan təcrübəsinin vəhdəti ... 191
**Nizami Xudiyev:** Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli ... 198
**Əhliman Əmiraslanov:** Heydər Əliyevin ümumbəşəri ideyalarında multikulturalizm siyasəti ... 208
**Səttar Mehbalıyev:** Müasir dövrdə Azərbaycanın multikulturalizm siyasəti və bu sahədəki nailiyyətləri dünya dövlətlərinə nümunədir ... 217
**Aydın Mirzəzadə:** Azərbaycan dövlətçiliyində multikulturalizm mədəniyyətinin formalaşmasında Heydər Əliyev siyasətinin rolu ... 225
**Abdin Fərzəliyev:** Multikulturalizmin Azərbaycan modeli dünyanın ən mükəmməl nümunəsinə çevrilib ... 232
**Yaqub Mahmudov:** Azərbaycan xalqının çoxmədəniyyətlilik tarixindən (Etnik-siyasi tarixə ümumi baxış) ... 241
**Nizami Cəfərov:** Azərbaycan xalqının multikultural təcrübəsi və Azərbaycan Respublikasının multikulturalizm siyasəti ... 254
**Şəmsəddin Hacıyev:** Multikulturalizm mühitinin formalaşmasında dini radikalizmə və ekstremizmə qarşı mübarizənin rolu ... 259
**Hadi Rəcəbli:** Multikulturalizm siyasətinin Azərbaycan nümunəsi ... 269
**Urxan Ələkbərov:** Multikulturalizm və Azərbaycanın iqtisadi-sosial inkişafı ... 277

**Əli Hüseynli:** Heydər Əliyevin dövlət quruculuğu siyasətində multikulturalizm amili ........ 285
**Sevinc Fətəliyeva:** Azərbaycan xarici siyasətində multikultural dəyərlər ........ 291
**Məlahət İbrahimqızı:** Heydər Əliyevin azərbaycançılıq ideyası multikultural dəyərlərin qarantı kimi ........ 301
**Aydın Hüseynov:** Azərbaycan dünyada multikulturalizm platformasının və sivilizasiyalarının mərkəzidir ........ 311
**Hüseynbala Mirələmov:** Multikultural dəyərlərin alternativi yoxdur ..... 318
**Hikmət Babaoğlu:** Multikulturalizm azərbaycançılıq ideologiyasının daxili komponentlərindən biri kimi ........ 326
**Aqiyə Naxçıvanlı:** Multikulturalizm ideologiya və sosial sabitlik siyasəti kimi – Ümummilli Lider Heydər Əliyevin irsinin yaradıcı şəkildə inkişafı ........ 332
**Sahibə Qafarova:** Azərbaycanın dünyaya mesajı: tolerantlıq inkişaf və sabitliyin əsas formuludur ........ 338
**Musa Quliyev:** Azərbaycançılıq ideyası və multikulturalizm fəlsəfəsinin vəhdəti ........ 346
**İmamverdi İsmayılov:** Azərbaycanı dünyada tolerantlıq və multikulturalizm örnəyinə çevirən siyasət ........ 353
**İsmayıl Hacıyev:** Heydər Əliyev və Azərbaycanda birgə yaşamaq mədəniyyəti ........ 362
**Bəxtiyar Sadıqov:** Nümunəyə çevrilən Azərbaycan ........ 370
**Aslan Aslanov:** Üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir ölkə ........ 382
**Ağabəy Əsgərov:** Polietnik və çoxkonfessiyalı dövlətin multikulturalizm siyasəti: Azərbaycan nümunəsi ........ 391
**Elmar Qasımov:** Multikulturalizmin Azərbaycan modeli qlobal proseslərin çağırışına cavabdır ........ 397
**Hüseyn Paşayev:** Heydər Əliyev siyasətində azərbaycançılıq: multikulturalizm milli mənəvi dəyərlərimizdəndir ........ 402



**Bəhruz Quliyev:** Siyasi jurnalistika və multikultural dəyər yönümləri..... 411
**Seymur Orucov:** Multikultural dəyərlərin təbliğində gənclərin rolu ........ 421
**İradə Hüseynova:** Müstəqil Azərbaycan Respublikası və multikultural dəyərlər ........ 427
**Əhməd Vəliyev:** Heydər Əliyev siyasətində multikultural dəyərlər: reallıqlar, faktlar ........ 436
**Şahlar Əsgərov:** Birgəyaşamanı öyrənmək ........ 446
**Xeyrəddin Qoca:** Heydər Əliyev Azərbaycanda multikulturalizmin siyasi və hüquqi banisidir ........ 451
**Vüqar Rəhimzadə:** Multikultural dəyərlərin qorunmasında və təbliğində mətbuatın rolu ........ 457
**Həsən Həsənov:** Azərbaycan: multikulturalizm və tolerantlığın unikal məkanı ........ 468
**Aytən Mustafayeva:** Multikulturalizmin Azərbaycan modeli ........ 479
**Dilarə Cəbrayılova:** Multikulturalizm Azərbaycanda dövlət quruculuğu siyasətinin tərkib hissəsidir ........ 488
**Pərvin Kərimzadə:** Qloballaşan etnosentrizm mühitində Azərbaycan multikulturalizmi nümunəsi ........ 497
**Gündüz İsmayılov:** Azərbaycanın multikultural, tolerant dəyərləri və dini konfessiyaların fəaliyyəti ........ 508
**Elman Nəsirov:** Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasəti: varislik, novatorluq ........ 516
**Novruzəli Rəhimov:** Ümummilli Lider Heydər Əliyev irsi Azərbaycan multikulturalizm siyasətinin nəzəri əsası kimi ........ 525
**Zərifə Quliyeva:** Heydər Əliyevin multikulturalizm siyasətində gender amili ........ 533
**Esmira Cəfərova:** Ulu Öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi sabitliyin qorunması mexanizmi kimi ........ 540
**Azad Məmmədov:** Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan dövlətinin multikulturalizm siyasətinin layihəsi kimi ........ 549

Oktay Səmədov: Azərbaycan multikulturalizmi: tədqiqi, tədrisi və təbliği ........ 557
Sakit Hüseynov: Multikulturalizm və tolerantlıq siyasəti sahəsində Heydər Əliyev uzaqgörənliyi ........ 565
Nəriman Qasımoğlu: Multikulturalizmin ədəbi-bədii irsimizdə dini əksi ........ 572
Rəşad İlyasov: İdman və multikulturalizm vəhdəti dəyəri ........ 581
Elsevər Səmədov: Din-dövlət münasibətlərində multikultural dəyərlərin yeri və rolu ........ 584
Aqil Şirinov: Multikultural dəyərlər kontekstində Azərbaycanın birgəyaşayış modeli ........ 590
Asəf Qənbərov: Multikulturalizm: milli və etnik müxtəlifliyin tənzimlənmə siyasəti ........ 596
Qafar Əliyev: Heydər Əliyev və Azərbaycanın millətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizm ənənələrinin dünyada təbliği ........ 603



HEYDƏR ƏLİYEV İRSİ VƏ
MULTİKULTURAL DƏYƏRLƏR

Kitab Yeni Azərbaycan Partiyasının
İcra Katibliyi tərəfindən hazırlanmışdır.

Texniki redaktor: *Cəsarət Qasımov*
Dizayner: *Kənan Yusubov*

Azərbaycan təcrübəsində multikulturalizmin istinad nöqtəsi, təbii ki, sivilizasiyanın məhsulu (və subyekti) olan İnsandır.

Sosial-siyasi münasibətlər "mən"i inkişaf etmiş cəmiyyətlərdə, hər şeydən əvvəl, vətəndaşdır. Ona görə də müasir dövrdə insanın ən mühüm (fundamental) göstəricisi məhz bundan (vətəndaşlıqdan) ibarətdir ki, həmin ən mühüm (fundamental) göstəricini insan və dövlət münasibətləri müəyyən edir.

Müstəqil Azərbaycan dövləti, nə qədər gənc olsa da, Azərbaycan xalqının, ümumən insanlığın zəngin tarixi birgəyaşayış təcrübəsinə əsaslanaraq, insanın (və cəmiyyətin) çoxspektrli mənəvi tələblərinin ödənilməsində ən humanist amil kimi insanın vətəndaşlıq dünyagörüşünün mükəmməlləşməsini təmin edir. Bu isə o deməkdir ki, Azərbaycan vətəndaşı:

1) müəyyən təbii etnoqrafik mühitin subyekti olmaqla hər hansı etnoqrafik mühitə hörmət edir;

2) müəyyən dil-ünsiyyət mühitinin subyekti olmaqla digər dil-ünsiyyət mühitlərinə hörmətlə yanaşır (və beynəlxalq dillərin mənimsənilməsində maraqlıdır);

3) müəyyən dinə (əsasən İslam dininə) mənsub olmaqla yanaşı digər dinlərə də tolerant münasibət nümayiş etdirir;

4) Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni həyatında bir vətəndaş olaraq fəal iştirak etməklə yanaşı özünü bu dünyanın övladı (və onun taleyinə cavabdeh) hiss edir.

Azərbaycan Respublikasının multikulturalizm siyasəti (və təcrübəsi) öz zəngin ənənələri (və əsaslandırılmış fəlsəfəsi) ilə bütün dünyada öyrənilməyə (və tətbiq olunmağa) tamamilə layiqdir.



**Şəmsəddin Hacıyev**
**Milli Məclisin deputatı,**
**YAP Səbail rayon təşkilatının sədri**

## MULTİKULTURALİZM MÜHİTİNİN FORMALAŞMASINDA DİNİ RADİKALİZMƏ VƏ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏNİN ROLU

Yaşadığımız dünya özünün təbii sərvətlərinin müxtəlifliyi və zənginliyi ilə yanaşı, bu sərvətlərdən istifadə edən insanların dil, din, irq, etnik, mədəni və s. xüsusiyyətlərinin rəngarəngliyi ilə də fərqlənir. Vahid Yer kürəsində yaşamağımıza, eyni dünyanı bölüşməyimizə baxmayaraq, dünyamız tarixən ayrı-ayrı xalqlar, millətlər, dinlər formasında müəyyən edilmiş sərhədlərlə fərqli dünyalara - sivilizasiyalara ayrılmışdır. Bu sərhədlər nə qədər qapalı olarsa, sivilizasiyalararası fərqlər və ziddiyyətlər də bir o qədər dərinləşir, dini, irqi, etnik zəmində münaqişələr genişlənir və nəticədə dünya sosial-mədəni, siyasi və iqtisadi böhrana düçar olur. Əksinə, sərhədlər nə qədər açıq-liberal olarsa, sivilizasiyalararası körpü nə qədər möhkəm olarsa, müxtəlif sivilizasiyalara mənsub insanların, xalqların, millətlərin dialoqunu təmin edən tolerant və əməkdaşlıq mühiti nə qədər sağlam formalaşarsa, dünyamızın sosial, mədəni, iqtisadi bütövləşməsi-inteqrasiyası prosesi və davamlı inkişafı da bir o qədər sürətlə baş verər. Bir sözlə, uzunmüddətli tarixi inkişaf prosesini keçmiş və zəngin ənənələrə malik müxtəlif sivilizasiyaların, mədəniyyətlərin mövcudluğu şəraitində dünyanın gələcək inkişafı onların toqquşmasını, bir-birini radikal şəkildə inkar etməsini deyil, məhz qarşılıqlı şəkildə anlaşmasını, zənginləşməsini, dostluq və əmin-amanlıq ruhunda dialoqunu və əməkdaşlığını, başqa sözlə - multikulturalizmi şərtləndirir.

Beləliklə, multikulturalizm – qlobal inkişafın alternativi olmayan çağırışıdır, onun iflası müasir dünyamızın daha da parçalanmasına və məhvinə gətirib çıxara bilər. Hər bir dövlət və cəmiyyət multikultural dəyərlərə əsaslanan siyasəti dəstəkləməklə həm özünün ictimai-siyasi və iqtisadi sabitliyini möhkəmləndirər, dinamik inkişafını təmin edər, həm də bütövlükdə dünyada münbit multikultural mühitin formalaşmasına mühüm töhfə vermiş olar.

Keçmiş və ən yeni tariximizin acı təcrübəsi göstərir ki, məhz müəyyən güc dairələri tərəfindən nüfuz uğrunda mübarizədə ayrı-ayrı xalqların dil, din, etnik və irqi fərqlərindən geosiyasi alət kimi istifadə edilməsi müasir dünyanın multikultural ab-havasını ciddi şəkildə pozmuş, bir sıra regionlarda multikulturalizmi iflasa uğratmış, sivilizasiyalararası dialoqu sarsıtmışdır. Xüsusilə də, insanların mənəvi dünyasını saflaşdıran, müqəddəs hesab etdiyi dini baxışlarında ifratçılığı, radikallığı təbliğ edən bu çirkin geosiyasi oyunlar nəticəsində, müasir dünyamız elm və texnologiyalar dövrü adlandırılan XXI əsrdə belə amansız qətllərə, terrora, qanlı müharibələrə şahidlik edir. Artıq dini radikalizm və ekstremizm bütün dünyanı narahat edən, bəşəriyyət üçün olduqca təhlükəli qlobal problemlərdən birinə çevrilmişdir. Şübhəsizdir ki, yaxın coğrafiyamızda, xüsusilə də Yaxın Şərq regionunda dini radikalizm və dini ekstremizm meyillərinin güclənməsi ölkəmiz və cəmiyyətimiz üçün də ciddi təhdid və təhlükə mənbəyinə çevrilmişdir.

Ümumiyyətlə, dini radikalizm və dini ekstremizm problemini yalnız müasir dövrə aid etmək düzgün olmazdı. Demək olar ki, tarixin müxtəlif dövrlərində zaman-zaman dini radikalizm və ekstremizm fenomeni müşahidə olunmuşdur. Onun yaranma tarixi çox qədimdir, araşdırsaq hardasa xristianlığın yarandığı ilk dövrlərə, bəlkə də ondan da əvvəllərə gedib çıxır. Din uğrunda aparılan müharibələr və ya din pərdəsi altında işğalçılıq siyasəti dini radikalizmin bariz nümunələridir. Sadəcə, müasir dünyamızda dini radikalizm və dini ekstremizm hallarının ildən-ilə coğrafiyası və miqyası genişlənmiş və onun fəsadları xeyli ağırlaşmışdır ki, bunların da həm obyektiv, həm də subyektiv səbəbləri mövcuddur. Dini radikalizm və ekstremizmin bəzi siyasi, maliyyə, hərbi güc dairələri tərəfindən dəstəklənməsi və başlıca siyasi alət kimi onlardan istifadə edilməsi problemin aktuallığını daha da artırmışdır. Heç kimə sirr deyildir ki, bu gün qlobal təhlükəyə çevrilən əksər terrorçu-ekstremist və dini radikalist təşkilatlar və qruplar əsasən bu güc dairələri tərəfindən yaradılır, idarə olunur, ideoloji bazası formalaşdırılır, maliyyələşdirilir və onlara hər cür şərait yaradılır. Bu mənfurniyyətli dairələr insanların inanclarından, etiqadlarından və bu məsələdəki həssaslıqlarından öz maraqlarına uyğun şəkildə istifadə edərək ölkə daxilində qarşıdurma, xaos yaratmağa, ölkəyə və hakimiyyət dairələrinə təzyiqlər və təhdidlər etməyə cəhd göstərir, hətta suveren dövlətlərin ərazilərini də işğal etməyə nail olurlar. Bunulna yanaşı, problemin həllini çətinləşdirən amillərdən biri də, radikalizm və ekstremizmə qarşı fəal mübarizəyə qoşulan ölkələrin, xüsusilə böyük dövlətlərin maraqlarının toqquşması və nəticə etibarilə, onların bu istiqamətdə vahid mövqedən çıxış etməməsidir.



Ümumiyyətlə, heç bir ölkə qlobal dünyamızda dini zəmində, din pərdəsi altında baş verən terrorizm, ekstremizm, separatizm və dini radikalizm kimi təhlükəli meyillərdən sığortalanmamışdır. Hər bir qlobal problem kimi, dini radikalizm, ekstremizm və terrorizm təhlükəsinə qarşı səmərəli mübarizə aparmaq bütün dünya ölkələrinin səylərinin birləşdirilməsini tələb edir.

Terminoloji ifadədə, radikalizm və ekstremizm hər hansı baxışlara, konsepsiyalara ifrat və güzəştsiz bağlılığı əks etdirir. Bu terminlər daha çox sosial-siyasi sferada mövcud ictimai institutların zorla, köklü və qəti surətdə dəyişdirilməsinə istiqamətlənən ideya və fəaliyyətə münasibətdə işlədilir. Bununla yanaşı, bəzən "radikal mühafizəkarlıq" meyilləri də mövcud olur. Hazırda radikalizmin siyasi, dini, etnik və s. formaları geniş yayılmışdır. Formasından asılı olmayaraq radikalizmin mahiyyətində dayanan əsas ideya – öz məqsədinə nail olmaq üçün başqalarının hüquqlarını pozmaq, haqqını tapdalamaqdır.

Dini radikalizm də bu mənada, özündən olmayan dini qruplara qarşı barışmaz mövqe nümayiş etdirən, özlərinin dini baxışlarının yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi ilə səciyyələnən, yəni başqalarına qarşı fiziki və ya mənəvi güc tətbiq edən bir davranış tərzidir. Yəni dini radikallıq əslində dinlərin mahiyyətindən deyil, birbaşa olaraq onların mənsublarının düşüncəsindən, psixologiyasından, əqidəsindən və tərbiyəsindən irəli gələn təhlükəli tendensiyadır.

Bu gün dünyada dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində, din pərdəsi altında ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ölkənin ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlər törədilir, bu məqsədə çatmaq üçün qanunsuz silahlı birləşmələr və ya qruplar yaradılır, silahlı münaqişələr, terror fəaliyyətləri həyata keçirlir, amansız qətllər törədilir, bu cür fəaliyyətlər müəyyən dairələr tərəfindən dəstəklənir və maliyyələşdirilir və s. Bütün bunlar dini radikalist və ekstremist fəaliyyətin təzahür formalarıdır.

Ümumiyyətlə, dini dəyərlər əxlaqi, mənəvi dəyərlər sistemindən kənarlaşaraq siyasi ideologiya vasitəsinə çevriləndə və kütləvi surətdə dəstəklənən siyasi təşkilatlanma formasını aldıqda dini radikalizmin mey-

dana çıxması qaçılmaz olur. Din və siyasətin birləşməsi, ilk növbədə dinin siyasi məqsədlər üçün istifadə edilməsinə səbəb olur. Lakin yaddan çıxarmamalıyıq ki, dinin əsas məqsədi insanların əxlaqi və mənəvi cəhətdən saflaşdırılması, tərbiyə edilməsidir və onun siyasi alətə çevirilməsinə qətiyyən yol verilməməlidir.

Təəssüflər olsun ki, bu gün dünyada, xüsusilə də Qərbdə radikalizmi, ekstremizmi, terrorizmi islam dinilə bağlayan bəzi dairələr mövcuddur. Lakin bu tamamilə yanlış, qəbuledilməz və nəticə etibarilə radikalizmin daha da kəskinləşməsinə səbəb ola biləcək bir yanaşmadır. Möhtərəm Prezidentimiz İlham Əliyev dünyanın ən mötəbər, nüfuzlu tədbirlərində "Terrorizmin nə milləti, nə də dini var", "İslam sülh dinidir, mərhəmət dinidir, dostluq dinidir" ifadələrini vurğulamaqla öz çıxışlarında dəfələrlə islamın hər hansı bir qanuna zidd hərəkətlərlə əlaqələndirilməsinə qarşı çıxmış, bu cür yanaşmanı dəfələrlə pisləmiş, qınamış və bu çirkin fikirlərin tərəfdarlarına ən tutarlı, ən dolğun və layiqli cavabı vermişdir. Həqiqətən də, bu gün dünyada mövcud olan bütün dinlərdə din pərdəsi altında radikal meyilli cərəyanlar mövcuddur və bu, dinlər və məzhəblərarası dözümsüzlük, zorakılıq və ya dini motivlərlə törədilən terror aktlarında təzahür edir. Ona görə də, terrorizmi hər hansı bir dinə və millətə bağlamaq böyük yanlışlıqdır.

Bu gün Qərbdə, xüsusilə Avropada islam və ekstremizm, islam və radikalizm, islam və terrorizm sözlərinin tez-tez bir arada işlədilməsini həm "Köhnə Dünyada" orta əsrlərdə mövcud olmuş köhnə hisslərin və təfəkkürün – islamofobiya, ksenofobiya, dini və irqi ayrı-seçkilik meyillərinin hələ də davam etməsinin, mənəvi böhranın daha da dərinləşməsinin təzahürü, həm də islam dininə mənfi münasibətin təbliği istiqamətində həyata keçirilən qərəzli, məkrli, məqsədyönlü siyasətin nəticəsi kimi qiymətləndirmək olar. Tarixdən də məlumdur ki, ilk dəfə "islamofobiya" termini XX əsrin əvvəllərində Avropada meydana gəlmiş və islam dininə mənfi münasibəti bildirmək üçün istifadə edilmişdir. İslam mədəniyyətinin digər mədəniyyətlərə təhlükə olması ideyasını təbliğ edən islamofobiya XX əsrin sonlarında, xüsusilə 2001-ci il 11 sentyabrda ABŞ-da törədilən terror aktından sonra daha da təhlükəli həddə gəlib çatmışdır. Belə ki, Qərbdə yaşayan müsəlmanlara qarşı ictimai həyatın bütün sferalarında diskriminasiya, ayrı-seçkilik münasibəti göstərilir, "Bütün müsəlmanlar terrorçu deyil, amma bütün terrorçular müsəlmandır" yanaşma tərzi ilə müsəlmanların radikalizmə və terrora meyilli olmasına dair yanlış ideologiya formalaşdırılırdı. Bununla yanaşı, 2011-ci il iyulun 22-də Norveçdə 90-a yaxın dinc insanın ölümü ilə nəticələnən məlum terror aktı Avropada islamofobiya meylinin gücləndiyini, müsəlmanlara qarşı dözümsüzlüyün, tolerant olmayan münasibətin hələ də davam etdiyini bir daha təsdiqlədi. İslamofobiya ilə bağlı çoxlu sayda tarixi faktları misal gətirmək olar.

Lakin Qərbin bu məkrli dairələri yaddan çıxarmamalıdırlar ki, onlar islamofobiya, ksenofobiya ideyalarını təbliğ etmək və həyata keçirməklə Qərb dünyasının təhlükəsiz gələcəyini sual altına qoymuş olurlar, radikalizmin, ekstermizm və terrorizmin genişlənməsinə zəmin yaradırlar. Elə son zamanlar Avropada miqrantlara, xüsusilə müsəlman miqrantlara olan münasibəti götürək. Bildiyimiz kimi, Yaxın Şərqdə, Ərəb dünyasında - Liviyada, İraqda, Suriyada və s. dəhşətli müharibələr törədilməsi, yüzlərlə şəhər və kəndlərin, qədim mədəniyyət abidələrinin, sivilizasiya nümunələrinin vəhşicəsinə dağıdılması və viran qoyulması, insanların hər şeydən, hətta yaşamaq hüququndan məhrum edilməsi cinayətləri milyonlarla insanı əsrlər boyu yaşadıqları torpaqları tərk etməyə məcbur etmiş, onların qaçqına və miqranta çevrilməsinə səbəb olmuşdur. Avropaya pənah gətirən çoxlu sayda müsəlman miqrantların qeyri-insani münasibətlərlə rastlaşmaları, dini zəmində ayrı-seçkilik siyasətinə məruz qalmaları nəticəsində hər şeyini itirmiş bu insanların radikal addımlar atmaları heç kimdə təəccüb doğurmamalıdır. Bu radikallıq onların məhz müsəlman olmasından deyil, Qərbin müsəlmanlara göstərdiyi radikal münasibətdən, dini etiqadından asılı olmayaraq bir insanın başına gətirilən fəlakətlərdən qaynaqlanan və islam dininə heç bir aidiyyəti olmayan fakt kimi dəyərləndirilməlidir. Hərçənd ki, bu hallardan istifadə edən bəzi dairələr vəziyyəti daha da gərginləşdirir, islam dininə qarşı geniş kampaniyalar aparır, aksiyalar təşkil edir, islamofobiya meyillərini daha da gücləndirirlər.

Bütün bunlar, bir daha radikalizmin, ekstremizmin, terrorizmin dinə, konkret bir millətə heç bir aidiyyəti olmadığını təsdiq edir. Müasir dünyada sabitlik, əmin-amanlıq, dayanıqlı inkişaf, sülh və həmrəyliyin yeganə yolu multikulturalizmdən keçir və bu gün müxtəlif millətlərin birgə yaşayışında, mədəniyyətlərarası və dinlərarası dözümlülüyün və tolerantlığın təmin edilməsində multikulturalizmin alternativi yoxdur.

Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dünyəvi dövlət modeli ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında uğurla reallaşdırılır və daha da zənginləşdirilir. Dünya sivilizasiya-

larının qovşağında yerləşən Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ölkəmizdə multikulturalizmin dövlət siyasəti səviyyəsinə yüksəldiyini bir daha təsdiq edir. Dinin dövlətdən ayrı olmasını, eyni zamanda sağlam dövlət və din münasibətlərinin formalaşdırılmasını, tolerantlığın, multikulturalizmin insanların həyat tərzinə, hətta adət-ənənəsinə çevrilməsini ehtiva edən bu modelin tətbiq edilməsi dini radikal və ekstremist dairələrin ölkəmizdə siyasi proseslərə müdaxilə imkanlarını tamamilə məhdudlaşdırır. Azərbaycan ənənəvi islam ölkəsidir və əhalisinin əksər hissəsi islam dininə etiqad edir. Bununla yanaşı, ölkəmizdə qeyri-islam dininə sitayiş edən yüz minlərlə insan yaşayır. Əsrlərdir ki, ölkəmizdə dinlərarası münasibətlər sağlam əsaslarla formalaşıb və dini baxımdan heç bir qarşıdurma, toqquşma baş verməyib. Azərbaycanda dini inanc və etiqad azadlıqları qanunlarla, Konstitusiya ilə təmin edilir, dövlət-din münasibətləri qüvvədə olan mövcud qanunvericiliyə və beynəlxalq normalara uyğun şəkildə tənzimlənir. Bu gün Azərbaycanı dünyada multikulturalizmin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzinə çevirən bu model çoxlu sayda dünya ölkələri, beynəlxalq təşkilatlar tərəfindən böyük rəğbətlə qarşılanır və Azərbaycan modelinin öyrənilməsinə, yayılmasına, təbliğinə böyük maraq göstərilir.

Eyni zamanda ölkəmiz nəinki öz milli sərhədlərinin hüdudları daxilində, bütövlükdə dünyada dinlərarası, millətlərarası əlaqələrin inkişafında fəal rol oynayır, öz töhfələrini verir. Bu istiqamətdə Heydər Əliyev Fondunun və onun Prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın misilsiz xidmətləri xüsusi vurğulanmalıdır. Elə yaxın tarixlərdə Vatikanda xristian aləmi üçün böyük mənəvi dəyərə malik olan, lakin biganə münasibət bəslənilən bir sıra sərdabələrin, muzeylərin, kitabxananın bərpasında Heydər Əliyev Fondunun yaxından iştirak etməsi Azərbaycanın multikulturalizmin uğurlu qlobal daşıyıcısı oduğunun bariz nümunələrindən biridir.

Bunlarla yanaşı, öz möhtəşəmliyi ilə digər idman yarışlarını kölgədə qoyan Birinci Avropa Oyunlarının ölkəmizdə keçirilməsi, dəfələrlə Beynəlxalq Humanitar Forumlarına, Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya dinlərinin liderlərinin Zirvə görüşünə ev sahibliyi etməsi, həmçinin qarşıdakı illərdə BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunun, İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsinin nəzərdə tutulması bir daha sübut edir ki, dünyada Azərbaycan qədər sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası münasibətlərin inkişafında həm maraqlı olan, həm də töhfə verən ikinci dövlət yoxdur.

Ölkəmizdə multikulturalizm modelinin uzunmüddətli tarixi inkişaf prosesinin nəticəsi olaraq özünəməxsus şəkildə formalaşması və ildən-ilə möhkəmlənməsinə baxmayaraq, biz hər zaman dini radikalizm və dini ekstremizm risklərini nəzarətdə saxlamalıyıq. Çünki nə qədər ki, həm xaricdə, həm də daxildə ölkəmizin siyasi və iqtisadi sabitliyini, davamlı inkişafını, gündən-günə qüdrətlənməsini gözü götürməyən dairələr, qüvvələr mövcuddur, bu kimi risklər və təhdidlər də mövcud olacaqdır. Ona görə də radikalizm və ekstremizm kimi neqativ meyillərə qarşı daima qabaqlayıcı tədbirlər görülməlidir, mübarizə gücləndirilməlidir və o, qanunvericilik müstəvisində daha da sərtləşdirilməlidir.

Bu gün ölkəmizdə ictimai-siyasi həyatın bütün sahələrinin hüquqi müstəvidə tənzimlənməsini təmin edən qanunvericilik bazasının formalaşdırılması prosesi davam etdirilir, əhəmiyyətli qanunlar qəbul edilir və ya mövcud qanunlara vaxtında müvafiq düzəlişlər edilir. Bu mənada "Dini ekstremizmə qarşı mübarizə tədbirləri haqqında" Qanun layihəsinin qəbul olunması xüsusilə qeyd olunmalıdır. Şübhəsizdir ki, bu Qanun sözügedən sahədə hüquqi bazanın möhkəmləndirilməsinə, dini ekstremizmə qarşı mübarizəni həyata keçirən dövlət orqanları, ictimai təşkilatlar və vətəndaşların hüquq və vəzifələrini, eləcədə ictimai və inzibati məsuliyyətlərini dəqiq müəyyən etməklə, bu sahədə baş verən bütün proseslərin və münasibətlərin qanun müstəvisində nizamlanması və tənzimlənməsinə tam şərait yaradacaqdır.

Bununla yanaşı, Milli Məclisdə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", "Dini etiqad azadlığı haqqında", "Polis haqqında" qanunlara, həmçinin Cinayət və İnzibati Xətalar məcəllələrinə edilmiş dəyişikliklərdə də dini radikalizm və dini ekstremizmə qarşı mübarizə tədbirləri daha da sərtləşdirilmiş, kəskin cəza tədbirləri nəzərdə tutulmuş, cinayət və inzibati məsuliyyət artırılmışdır. Bütün bunlar son dövrdə dünyada güclənməkdə olan, terrorizmə yol açan, xaosa və fəlakətə gətirib çıxaran dini radikalizm və dini ekstremizmin, insanların inanclarından sui-istifadə edilməsi hallarının ölkəmizə nüfuz etməsinin və onun xarici dairələrin dəstəyi ilə genişlənməsinin vaxtında qarşısının alınmasında mühüm rol oynayacaqdır.

Bir sözlə, Azərbaycanın multikulturalizm siyasəti xalqımızın həyat tərzinə çevrilmiş multikulturalizm, tolerantlıq mühitini pozan, ona təhlükə

doğuran ən xırda səbəb, hadisə və amilin belə vaxtında qarşısının alınmasına, qabaqlayıcı tədbirlərin görülməsinə, radikal və ekstremist müdaxilələrə qarşı effektiv mübarizə aparılmasına tam hüquqi təminat yaradır.

Hazırda ölkəmizdə sistemli, ardıcıl və kompleks şəkildə dini radikalizmə qarşı mübarizə həyata keçirilir. Bu sahədə hüquq-mühafizə orqanlarının, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə uğurlu əməkdaşlığı çərçivəsində həyata keçirilən işlər təqdirəlayiq hesab edilməlidir. Bununla belə, bu sahədə mübarizənin effektivliyini daha da gücləndirmək məqsədilə aşağıda göstərilən istiqamətlər üzrə ardıcıl və davamlı işlərin görülməsi vacibdir:

- Birinci, bu mübarizəyə ideoloji baxımdan hazır olmaq zəruridir. Yəni inanmıram ki, azərbaycançılıq, vətənpərvərlik, multikulturalizm, tolerantlıq, milli-mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə alan, formalaşan və bu ideologiyaya sahib olan hər hansı bir şəxs, Azərbaycan vətəndaşı dini radikalist, dini ekstremist baxışlara qoşulsun və ya fəaliyyət göstərsin. Bu nöqteyi-nəzərdən hər bir ailənin, bütün həssas yaş dövrünü əhatə edən təhsil müəssisələrinin, kütləvi-informasiya vasitələrinin və medianın üzərinə böyük məsuliyyət düşür. Bu mənada təhsilin bütün pillələrində və səviyyələrində təhsil alanlara (uşaqlara, yeniyetmələrə və gənclərə) milli-mənəvi dəyərlərimizin, azərbaycançılıq məfkurəsinin, islam dini və mədəniyyətinin düzgün olaraq daha mütərəqqi və təsirli vasitələrlə öyrədilməsinə böyük ehtiyac vardır. Fikrimizcə, bu məsələlərə aid dərslik və dərs vəsaitlərində müvafiq mövzulara bir qədər də geniş yer ayrılması, hətta tədris planlarında xüsusi kursların, fakültativ fənlərin nəzərdə tutulması, islam dini və milli-mənəvi dəyərlər mövzusunda müntəzəm olaraq debatların, dəyirmi masaların, konfransların, inşa, musiqi, rəsm və digər müsabiqələrin keçirilməsi, müxtəlif yaş qrupları üçün böyük tirajlarla islam dini, onun tarixi, hüququ, fəlsəfəsi, iqtisadiyyatı və s. haqqında ədəbiyyatların nəşr edilməsi, filmlərin, videoçarxların hazırlanması, yayılması və s. bu kimi tədbirlərin ümumrespublika səviyyəsində reallaşdırılması güclü təsiredici effektə malik ola bilər və bu sahədə aparılan ideoloji işin uğurla həyata keçirilməsinə real zəmin yaradardı.

Ümumiyyətlə, ideoloji mübarizədə uğur əldə etməyin əsas şərtlərindən biri bu sahənin elmi bazasının gücləndirilməsidir və burada da alimlərimizin iştirakı mütləqdir. Möhtərəm Prezidentimiz İlham Əliyev bu məsələləri daima diqqət mərkəzində saxlamış və dəfələrlə Azərbaycan alimlərini bu işdə daha fəal olmağa çağıraraq öz çıxışlarında vurğulamışdır ki, Azərbaycanda multikulturalizmin tarixi, ənənələri, bugünkü reallıqları və dövlət siyasəti haqqında elmi əsaslandırmaların aparılması və böyük elmi əsərlərin hazırlanması zəruridir və cəmiyyətimiz üçün çox faydalıdır;

- İkinci istiqamət kimi mübarizənin inzibati-təşkilati və hüquqi yollarla davam etdirilməsi, qanunvericiliyin daha da təkmilləşdirilməsi, möhkəmləndirilməsi, radikal, ekstremist qrupların qanun pozuntularına, qanuna zidd hərəkətlərinə qarşı dövlət tərəfindən ən sərt tədbirlərin görülməsi vacibdir. Bu gün bu sahədə əhəmiyyətli işlər görülür və gələcək dövrlərdə də qanunvericiliyin daha da möhkəmləndirilmısi və sərtləşdirilməsi istiqamətində işlərin həyata keçirilməsi vacibdir;

- Üçüncü, mühüm istiqamət kimi, iqtisadi metodlardan istifadə oluna bilər. Bu zaman, dini radikalist və ekstremist fəaliyyətlə məşğul olan şəxsin, qrupun və ya təşkilatın maliyyə qaynaqları nəzərdən keçirilməlidir. Kimlərinsə gizli və ya qanuni yolla əldə etdikləri vəsaitlərdən, xüsusilə xarici mənbələrdən milli-mənəvi dəyərlərimizə qarşı istifadəyə imkan yaradacaq halların qarşısını almaq, din pərdəsi altında fəaliyyət göstərən, lakin dinlə heç bir əlaqəsi olmayan, dinə yad cərəyanların, məzhəblərin maliyyə mənbələrini birdəfəlik kəsmək və s. bu kimi məsələlər daima diqqət mərkəzində saxlanılmalı və müvafiq dövlət orqanları və dini qurumlar tərəfindən ciddi nəzarətə götürülməlidir. Bununla da, həm dini radikalist və ekstremist qüvvələrin havadarlarının ümidlərini puça çıxarmaq, həm də onların genişlənməsinin qarşısını almaq mümkün olardı;

- Dördüncü istiqamət kimi, maarifləndirmə işlərinin gücləndirilməsini göstərmək olar. Maarifləndirmə qeyd etdiyimiz bütün mübarizə istiqamətlərini əhatə etməlidir. Müasir dövrdə dini radikalizmə, ekstremizmə, fanatizmə və hər türlü ifrata qarşı mübarizədə əsas silah maarifləndirmədir desək, yəqin ki, səhv etmiş olmarıq. Danılmaz faktdır ki, savadsızlıq cəhalətə, cahillik fanatizmə, fanatizm radikalizmə, radikalizm ekstremizmə, ekstremizm isə terrorizmə aparan yoldur. Dini maarifləndirmənin gücləndirlimesi, dinimizin düzgün şəkildə insanlara aşılanması radikalizmin və digər neqativ dini meyillərin qarşısını alan ən güclü vasitədir. Bu zaman KİV, media ilə yanaşı, ilahiyyatçı alimlərin və din xadimlərinin üzərinə də böyük iş və vəzifələr düşür. Din xadimləri siyasətə qoşulmadan insanları əxlaqi və mənəvi cəhətdən saflaşdırmaq, tərbiyə etmək və s. bu kimi müqəddəs vəzifələri yerinə

yetirməklə ölkənin quruculuğunda, müdafiəsində, cəmiyyətin milli-mənəvi tarazlığının və tolerantlığının qorunmasında dövlətə yardımçı ola bilərlər. Bir daha qeyd etmək istərdim ki, Azərbaycan dünyəvi dövlətdir, din dövlətdən ayrı olsa da, dövlət dindən ayrı deyildir. Din ictimai həyatımızın, milli-mənəvi dəyərlərimizin, mənəviyyatımızın, əxlaqımızın, mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Məhz buna görə də bu sahədə baş verən və ya baş verə biləcək hər hansı bir neqativ proseslərə qarşı dövlət biganə qala bilməz. Dövlət burada da öz düşünülmüş tənzimləyici, maarifləndirici və əlaqələndirici funksiyalarını yerinə yetirməlidir.

Ümumiyyətlə, sadalanan mübarizə istiqamətləri şərti olaraq bir-birindən ayrılır. Dini radikalizmlə və ekstremizmlə effektiv mübarizə bütün vasitələrdən, üsullardan, metodlardan kompleks və sistemli şəkildə, ardıcıl və davamlı surətdə istifadə edilməsini tələb edir.



**Hadi Rəcəbli**
**Milli Məclisin komitə sədri,**
**YAP Siyasi Şurasının üzvü**

## MULTİKULTURALİZM SİYASƏTİNİN AZƏRBAYCAN NÜMUNƏSİ

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Çünki, multikulturalizm çoxmədənilik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti təyin edən fenomendir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud, ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür. Onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Multikulturalizmin əsasını tolerantlıq, milli birliklərin adət-ənənələrinə və bir-birinin azadlığına hörmət hissi təşkil edir. Elmi ədəbiyyatda verilən məlumata görə, multikulturalizm anlayışı çox da qədim tarixə malik deyil. "Multikulturalizm" termini Kanadada yaransa da, siyasi leksikona ilk dəfə 1970-ci ildə Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir.

Multikulturalizm başqa xalqın nümayəndəsinə, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Həmçinin, multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edir, inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti